Məhəmməd Rəhmanifər



# Məscid kimi tikilib Azərbaycanın mübarizə simvoluna çevrilən qala

***Qədim yunan filosofu Aristotel insanları danışan heyvan adlandırmışdı. Bu gün yalnız insanların yox, heyvanların da danışdıqlarını bilirik. Bəs daş, gil və kərpic haqqında nə demək olar? Bunlar gerçəkdən səssiz, dilsiz, lal və kar obyektlərdirmi? Bəs tarixi abidələr haqqında necə? Məncə bunlardan bəziləri insanlardan belə daha çox və daha açıq şəkildə danışırlar. Bu tarixi abidələr yerləşdikləri yerlərin qədim tarixinin canlı şahidi və eyni zamanda, rəvayətçisi sayılırlar. Hələ ki bunların bəziləri bir şəhərin simvolu kimi tanınırlar. Bu tarixi abidələrdən biri də Təbrizin Ərk qalasıdır. Qalanın hündürlüyü 33 metrə çatır və ölkənin ən hündür tarixi divarlarından biridir. Bu gün şəhərin keşməkeşli tarixini xatırlatmaqla birlikdə Təbrizin qədim memarlığının gücünün və əzəmətinin simvoludur.***

Bu qala əzəməti ilə Təbrizin əzəmətini, sabitliyi ilə bu şəhərin sabitliyini, qürur və baş ucalığı ilə Təbrizin qürur və baş ucalığını əks etdirir. Amma Təbrizdə həmişə sevincli günlər olmayıb. Bunu bu binanın kərpiclərindən də anlamaq olar. Təbrizin bu simvolunun dim-dik duran qamətinə vurulan dərin yaralar tarix boyu Təbrizə vurulan yaraların ən yaxşı rəvayətçisidir. Bu gün bu yazımızda bu tarixi abidənin başına gələnləri və daha doğrusu Təbrizin başına gələnləri gözdən keçirəcəyik.

## Təbrizin Ərk qalası nə vaxt və necə tikilib?

Ərk qalası Elxanlılar dövrünə (1256–1335) aid əsərdir. Əslində, Moğol Elxanlığı dövründə Azərbaycan özünün ən çiçəklənmə və tərəqqi dövrlərindən birini yaşadı. Azərbaycanımızın dörd bucağında Moğol Elxanlarının bizə yadigar buraxdığı abidələrlə qarşılaşırıq. Ötən yazılarımızın birində Elxanlılar dövrünün ən möhtəşəm tarixi abidələrindən biri olan Güney Azərbaycandakı Sultaniyyə günbəzi ilə tanış olmuşduq. Bu gün sadəcə tarix kitablarında adı keçən, bir də Təbrizin bir məhəlləsi üstündə adı qalan Şam Qazan deyilən hökmranlıq binası da bunlardan biri imiş. Bir də elə Təbrizdə Rəb-i Rəşidi deyilən dünyanın ən qədim universitetlərinin biri də eyni zamanda tikilib. Üzərində Moğol Elxanlarının bilgin və alim vəziri Xoca Rəşidəddin Fəzlullah Həmədaninin adını daşıyan bu qədim elmi mərkəzdən də günümüzə yalnızca xarabalıqlar qalıb.

Ərk qalası Azərbaycanın əzəmətli və inkişaf etmiş dövründən yadigar abidədir. Təbriz qalasının tikintisinə o zamanlar Moğol Elxanlığının vəziri (baş naziri) olmuş Tacəddin Əli Şah Gilaninin göstərişi ilə hicri 716-724-cü illər arasında başlanıb. Tarixi mətnlər göstərir ki, bu qədim binanın yaradıcılarının əsas məqsədi o zamanadək heç vaxt tikilməmiş böyük bir məscid inşa etmək olub. Əslində, müxtəlif tarixi dövrlərdə dünyanın ən hündür günbəzinin tikintisi ilə bağlı müxtəlif memarlar və hətta dövlətlər arasında ciddi rəqabət olub. Bununla belə, dünyanın ən hündür günbəzini tikmək bacarıqla yanaşı, dəqiq memarlıq texniki bilikləri tələb edirdi.

Moğol Elxanlarının vəzirləri olan Tacəddin Əli Şah Gilani və Xoca Rəşidəddin Fəzlullah Həmədaninin aralarındakı rəqabət üzündən Tacəddin Əli şah Sultaniyyə günbəzindən daha hündür günbəzi olan məscid tikmək niyyətində idi. Lakin tələskənlik, kifayət qədər qayğının göstərilməməsi və texniki tələblərə əməl edilməməsi səbəbindən günbəz başa çatdıqdan az sonra uçub töküldü. Amma bu möhtəşəm tarixi binanın əzəməti qədim tarixçilər və coğrafiyaçıların gözündən qaçmayıb, müxtəlif tarixi mənbələr bu bina haqqında qiymətli məlumatlar verir. Məsələn, tanınmış tarixçi və coğrafiyaçı, Qəzvinli Həmdullah Müstovfi (1281- 1339) yazır: "Xoca Tacəddin Əli şah Təbriz şəhərində Kəsra eyvanından daha böyük bir məscid tikdirdi, lakin onun binasına tələsik daxil olanda o, dağıldı".

***İbn Battuta (1304-1369) bu əsər haqqında yazır: "Həyəti mərmər daşlarla döşənib, divarları kirəmitlə üzlənib. Onun içindən bir çay axır və orada hər cür ağac, yasəmən və meyvə yetişdirilir".***

***Fransız səyyahı Ser Jan Şarden yazır: "Təbrizə girdiyimizdə diqqəti cəlb edən ən hündür əsər bu quruluşdur".***



## Ərk Qalası nə üçün istifadə olunurdu?

Tarixi mənbələrə görə, bu tikili əvvəlcə məscid və ənənəvi məktəb kimi istifadə olunub. Lakin Hicri 724-cü ildə Tacəddin Əli şahın vəfatı ilə bu kompleksin tikintisi dayandırılıb, fasad hissəsi, böyük cənub tağının bəzəkləri və dağılmış tağının tamamlanması heç vaxt tamamlanmayıb. Bu da bizim tariximizin acı yanlarından biridir. Tarix boyunca bir sonrakı şahlar, yaxud vəzirlər nəinki bir öncəki şahların, yaxud vəzirlərin yarım qalmış işlərini tamamlamamışlar, çox zaman onları hətta yıxıb dağıtmışlar. Elə Tacəddin Əli Şah Gilani də özündən əvvəlki vəzir Xoca Rəşidəddin Fəzlullah Həmədaniyə qarşı eyni şəkildə davranmışdı və onun tikdirdiyi möhtəşəm binalar Tacəddin Əli Şah Gilani dövründə qorunub saxlanılmadı.

Bu tarixi abidə Səfəvilər dövründə hərbi və müdafiə məqsədləri üçün istifadə olunub. Məhz o tarixdən bu yana Ərk qalası Azərbaycanın bir qalası, əsgəri və qoruyucusu xidmətini göstərib. Bəlkə bu gün Güney azərbaycanlıların arasında qazandığı simvolik dəyərdə Ərk qalasının bu xidmətinin də təsiri olub.

***Azərbaycanın ikiyə bölünməsi ilə nəticələnən uzun müddətli Qacar-Rusiya müharibələri zamanı qala yenidən hərbi və müdafiə məqsədləri üçün istifadə edilib. Fəth Əli şahın (1769 – 1834) oğlu və vəliəhdi Abbas Mirzə Təbrizi rus ordusu ilə döyüşə hazırlayarkən bu Elxanlı tikilisinin çevrəsinə qalın və dayanaqlı divarlar hörmüşdü. Abbas Mirzə bu kompleksin içində silah və sursat istehsalı üçün tökmə sexləri də tikdirmişdi. Əslində, bu binanın artıq məscid olaraq yox, Ərk, yaxud Qala olaraq adlanması da buradan başlayır. Şəhəri müdafiə etmək üçün döyüşə hazır topları olan qala! O tarixdən bu yana bu qala hər zaman Təbrizin və Azərbaycanın keşiyində duran bir əsgər simvolu daşıyıb.***

*Ərk qalası Elxanlılar dövrünə (1256–1335) aid əsərdir. Əslində, Moğol Elxanlığı dövründə Azərbaycan özünün ən çiçəklənmə və tərəqqi dövrlərindən birini yaşadı. Azərbaycanımızın dörd bucağında Moğol Elxanlarının bizə yadigar buraxdığı abidələrlə qarşılaşırıq. Ötən yazılarımızın birində Elxanlılar dövrünün ən möhtəşəm tarixi abidələrindən biri olan Güney Azərbaycandakı Sultaniyyə günbəzi ilə tanış olmuşduq. Bu gün sadəcə tarix kitablarında adı keçən, bir də Təbrizin bir məhəlləsi üstündə adı qalan Şam Qazan deyilən hökmranlıq binası da bunlardan biri imiş...*